**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

Bakı şəhəri 14 may 2015-ci il

## Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2014-cü ildə elan edilərək keçirilmiş "Universitet qrantı" məqsədli müsabiqəsinin (EİF/MQM/Universitet-1-2014-5(20)) nəticələri haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) Ölkənin bir sıra ali təhsil müəssisələrində aparılan əhəmiyyətli elmi araşdırma və tədqiqatların daha yüksək səviyyədə dəstəklənməsinə yönəlmiş layihələrin qrantlar yolu ilə ünvanlı şəkildə maliyyələşdirilməsi məqsədi ilə Elmin İnkişafı Fondu, Himayədarlar Şurası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi 2014-cü ildə elan edilərək keçirilmiş "Universitet qrantı" məqsədli müsabiqəsinin (EİF/MQM/Universitet-1-2014-5(20)) nəticələrini

ELAN EDİR:

1. Elmin İnkişafı Fondu 2014-cü ildə elan edilmiş "Universitet qrantı" müsabiqəsinin keçirilməsi haqqında qərarını 3 noyabr 2014-cü il tarixində internet səhifəsində və kütləvi informasiya vasitələrində elan etmiş və qrant layihələrinin qəbulu üçün müddəti 2014-cü il 3 noyabr – 3 dekabr tarixlərini müəyyənləşdirmişdir. Bu müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası qrant iddiaçılarına kömək məqsədilə 4 məsləhət seminarı təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.
2. Yuxarıda göstərilən müddət ərzində müsabiqəyə 37 layihə daxil olmuş və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində müvafiq qeydiyyatdan keçirilmişdir. 2014-cü il 20 dekabr – 2015-ci il 20 fevral tarixlərini əhatə edən müddətdə bu layihələrin texniki

və elmi ekspertizası işi təşkil olunmuşdur. Müsabiqə qaydaları və tələblərinə cavab verməyən 6 layihə texniki ekspertiza mərhələsindən keçməmiş, 31 layihə isə elmi ekspertiza mərhələsinə buraxılmışdır. Ekspertiza işinə Elmin İnkişafı Fondunun daimi ekspertləri və müstəqil elmi ekspertlər cəlb olunmuşlar.

3. Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil elmi ekspertlər təqdim olunmuş layihələrin cari müsabiqənin elmi prioritetlərinə uyğunluq dərəcəsini müəyyənləşdirmiş, layihələrin elmi səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını, gözlənilən elmi nəticələrini, mümkün tətbiq ehtimalını ekspertiza qaydalarına uyğun olaraq xüsusi sistem üzrə qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün rəylər, arayışlar və tövsiyələr hazırlamışdır.
4. Elmin İnkişafı Fondunun icraçı direksiyasının, daimi və müstəqil elmi ekspertlərin hər bir layihə üzrə hazırladığı və statistik məlumatların daxil olduğu yekun sənədlər toplusuna Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının 2015-ci il 19 mart tarixli iclasında baxılmış, ekspertiza qaydalarına uyğun olaraq layihələrin yekun toplanmış ballara görə sıralanmış siyahısı və maliyyələşdirilmə həcmi barədə tövsiyələr müzakirə olunmuş və yekun qərar qəbul edilmişdir.
5. 2014-cü ildə elan edilərək keçirilmiş "Universitet qrantı" müsabiqəsinin 11 qalib layihə müəyyənləşdirilmiş və Elmin İnkişafı Fondunun 2015-ci il 28 aprel tarixli Qərarı ilə təsdiq olunmuşdur. Cari müsabiqə üzrə ümumi maliyyələşdirilmə həcmi **890 000** manat olmuşdur.
6. Bu elan verildikdən sonra müəyyənləşdirilmiş müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası ilə qalib layihənin rəhbəri arasında layihənin yerinə yetirilməsi barədə lazımi sənədlər toplusu hazırlanmaqla müvafiq müqavilə bağlanılacaq və qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçiriləcəkdir.
7. Elmin İnkişafı Fondu 2014-cü ildə elan edilərək keçirilmiş "Universitet qrantı" müsabiqəsinin qaliblərini təbrik edir, müsabiqə iştirakçılarına və müstəqil elmi ekspertlərə minnətdarlığını bildirir.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***